**Azərbaycan Respublikası**
**Ağsu Rayon İcra Hakimiyyəti başçısının**

# S Ə R Ə N C A M I

**№ 183**

**Ağsu şəhəri** **“15” dekabr 2021-ci il**

**“Ağsu RİH yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə komissiya”nın yaradılması haqqında**

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununun icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin 2.3-cü və “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 6.8-ci bəndlərini rəhbər tutaraq

**QƏRARA ALIRAM:**

1. Rayon icra hakimiyyəti yanında İctimai şuraya seçkinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət olmaqla aşağıdakı tərkibdə seçki komissiyası təşkil edilsin:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Sevil Mirzəliyeva | -RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri; |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| 1. Vüqar Hüseyinov | -RİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri; |
| 2. Ceyhun Hüseynov | -RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri; |
| 3. Fikrət Tarverdiyev | -RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi; |
| 4. Zeynalov Cəmaləddin | -Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq mühafizə Orqanları Veteranlar Şurasının sədri; |
| 5. Azər Xəlilov | -QMƏVŞA İctimai Birliyinin rayon şöbəsinin üzvü, şəhid atası; |
| 6. Nadir Orucov | -Ağsu Bələdiyyəsinin sədri; |
| 7. Elçin Cabbarov | -Dövlət Qulluqçuları Həmkarlar İttifaqı rayon Komitəsinin sədri; |
| 8.Yalçın Pənahov | -“Ağsu” qezetinin baş redaktoru; |

**2.** Seçki Komissiyası;

Seçki Komissiyasına tapşırılsın ki, İctimai şuraya seçkini "İctimai Şuranın vətəndaş cəmiyyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun təşkil etsin.

**3.** Rayon icra hakimiyyətinin fəaliyyət istiqamətlərinin genişliyini və iş həcmini nəzərə almaqla ictimai şura üzvlərinin say həddini müəyyən etsin.

**4.** Rayon icra hakimiyyətinin rəsmi internet səhifəsindən (www.agsu-ih.gov.az), "Ağsu" qəzetindən və mövcud olan digər vasitələrdən istifadə etməklə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

**5.** Seçkilərin "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin.

**6.** Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Ceyhun Hüseynova tapşırılsın ki, aidiyyətı şəxsləri sərəncamla tanış etsin.

**7.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Ağsu Rayon İcra Hakimiyyətinin başçısı** **Rövşən Bağırov**

Azərbaycan Respublikası Ağsu Rayon İcra Hakimiyyətinin Başçısı